Oktyabrın 22-də elm və təhsil nazirinin müavini, nazirliyin Apellyasiya Şurasının sədri Firudin Qurbanovun rəhbərliyi ilə Apellyasiya Şurasının növbəti iclası keçirilib.

İclasda Elm və Təhsil Nazirliyinin Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin Qazax-Tovuz Regional Təhsil İdarəsinin Ağstafa rayonu üzrə təhsil sektorunun baş məsləhətçisi vəzifəsinə namizədlər Mətanət Ağayeva, Gülnar Şükürlü, Nüsrət Əlizadə, Pərvanə Hüseynova və Əli Əliyevin şikayətlərinə baxılıb.

İclasda müsahibə komissiyası üzvlərinin təqdim etdiyi məlumat və videogörüntülər əsasında şikayətlər araşdırılıb, 1 şikayətin təmin edilməsi, 3 şikayətin təmin edilməməsi və 1 şikayət üzrə icraata xitam verilməsi barədə qərarlar qəbul olunub.